# AZƏRBAYCAN DİLÇİLİK ELMİNİN İSMAYIL MƏMMƏDLİ ZİRVƏSİ

*İSMAYIL MƏMMƏDLİ -75*

Azərbaycan filoloji fikir tarixində özünəməxsus yer tutan, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının üzvü, filologiya elmləri doktoru, professor İsmayıl Oruc oğlu Məmmədli ömrünün müdrik çağlarını yaşayır. Bu günlərdə alimin 75 yaşı tamam olur.

İsmayıl Məmmədli həyatını şərəflə yaşayan, həmişə gülərüzlüyü, həyatsevərliyi və insanlığı ilə seçilən dilçi alimlərimizdəndir. Onun ürəyiaçıqlığı həmişə ünsiyyətdə olduğu şəxsə qarşı səmimi münasibəti alimin elmi fəaliyyətinə də sirayət etmişdir. İsmayıl Məmmədli ömrünü doğma ana dilimizin keşiyində durmağa həsr etmiş əsl alim və fədakar ziyalıdır. Görünür bu ona ailəsindən keçib, çünki İsmayıl müəllimin atası məşhur el sənətkarı Aşıq Oruc olub. Ömrünün sonuna qədər elin xeyir-şərində iştirak edən, sevincinə də, dərdinə də şərik olan Aşıq Orucun ailəsi də Stalin repressiyalarına məruz qalmış, ailə Göyçədən Gədəbəyə köçməli olmuşdur. Uşaqlıq və ilk gənclik illərində atası ilə el məclislərinə gedən balaca İsmayıl özü də bilmədən doğma ana dilinin ecazkarlığına vurulmuş, Azərbaycan dilinin incəliklərinə maraq göstərmişdir. Bu təcrübə ona artıq yetkin bir gənc olarkən daha çox kömək etmişdir. İsmayıl Məmmədli uzun müddət radio və televiziyada “Azərbaycan dili” və “Dil xalqın mənəvi sərvətidir” adlı verilişlərlə Azərbaycan dilinin gözəlliyini, zənginliyini, zərifliyini sevə-sevə vəsf etmiş, uşaqlıq çağlarından heyran olduğu dilin incəliklərini tamaşaçılara çatdırmışdir. Gənc yaşlarından belə məsuliyyətli və taleyüklü məsələlərin həllinə çalışan İsmayıl müəllim hələ o vaxtdan Azərbaycan dilinin qorunmasında, inkişafında və ədəbi dilimizin zənginləşməsində özünəməxsus rol oynamağa başlamışdır. Özünün səlis danışığı ilə o, doğma Azərbaycan dilinin ifadə imkanlarının necə zəngin olduğunu tamaşaçıya çatdırır və dövrünün tələbləri ilə Azərbaycan dilinə ikinci dərəcəli dil kimi baxanlara, uşaqlarına ana dilini öyrətməyənlərə sanki bu sənin ananın dili, doğma Vətən dili – Azərbaycan dilidir, deyirdi. Həmin illərdə onun bu çıxışlarından ilhamlanan neçə-neçə azərbaycanlı öz övladlarına Azərbaycan dilini öyrətdi və milli müstəqillik mübarizəsinin alovlandığı illərdə bu verilişdən ilhamlanan gənclər də az olmadı.

Ömrünü müasir Azərbaycan dilçilik elminin inkişafına həsr edən İsmayıl Məmmədli bu mənada həm də çox ciddi tədqiqatçıdır. Uzun illərdir ki, AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinə rəhbərlik edən alimin birbaşa rəhbərliyi ilə neçə-neçə lüğət hazırlanmışdır. Xüsusən də “Azərbaycan dilinin orfoqrafiya” lüğəti bu mənada fərqlənir. Lüğətin 2013-cü il altıncı nəşrinin redaktoru və ön sözünün müəllifi olan dilçi alim, həm də son yeddinci nəşrin məsul redaktorlarından biridir. Lüğətlərin, xüsusən də orfoqrafiya lüğətlərinin hazırlanmasının nə qədər məsuliyyətli, məsuliyyətli olduğu qədər də vacib və əhəmiyyətli olduğunu demək artıq olardı. Nəzərə almaq lazımdır ki, dil daim inkişaf edir, dəyişir və bu dəyişikliklər özünü ilk olaraq orfoqrafiya lüğətlərində əks etdirir. Orfoqrafiya lüğətləri bu mənada hər kəs üçün bir sorğu kitabı, hər bir vətəndaşın stolüstü kitabıdır. Bu səbəbdən də bu lüğətin hazırlanması və nəşri tərtibçilərdən və redaktorlardan olduqca böyük səbir və məsuliyyət tələb edir. Digər tərəfdən ən çox istifadə edilən və Nazirlər Kabinetinin qərarları ilə nəşr edilən bu lüğət həm də ən çox üzdə olan, hamıya xidmət edən nəşr hesab oluna bilər. Belə bir məsuliyyətin altına girmək və ana dilinin qorunmasında və gələcək nəsillərə ötürülməsində müstəsna xidmətləri olan lüğətin hazırlanmasında birbaşa iştirak edən şöbəyə rəhbərlik etmək, verilən rəylərə və bəzən də tənqidlərə təmkinini pozmadan, elmi dəlillərlə cavab vermək heç də asan iş deyil.

İsmayıl müəllim həm də “Azərbaycan dilinin orfoqrafiya lüğəti”nin (2021) A, B, C hərflərinin müəllifidir.

Lüğətçilik müstəqillik illərində Azərbaycanda ən çox inkişaf edən sahələrdən biridir. Bu mənada professor İsmayıl Məmmədli və onun rəhbərlik etdiyi şöbə son illər xeyli iş görmüşdür. Bu mənada təqdirəlayiq işlərdən biri

də İsmayıl müəllimin birbaşa iştirakı və redaktorluğu ilə hazırlanmış "Yeni sözlər və yeni mənalar lüğəti" də özünün orijinallığı, ən əsası isə lazımlılığına görə diqqəti cəlb edir. 2016-cı ilə çap edilən lüğətdə elm, texnika və məişətin müxtəlif sahələrində işlənən 2000-ə yaxın söz toplanaraq izahı verilmişdir. Məlum olduğu kimi, dil daim yeni sözlərlə zənginləşir. Bu mənada bu sözlərin izahına da ehtiyac duyulur. İzahlı lüğətlər tez-tez çap olunmur. Aralıq müddətdə isə bu tip izahlı lüğətlərə ehtiyac çox olur.

Bunlarla yanaşı İsmayıl müəllim həm də xeyli sayda elmi monoqrafiyaların müəllifidir. Alimin "Azərbaycanca - rusca etnoqrafiya terminləri lüğəti" (şərikli), "Ekran, efir və dilimiz", "Azərbaycanca - rusca danışıq kitabı", "Azərbaycan dilinin izahlı lüğəti" (3 cilddə, tərtibçilərdən biri), "Axtarışlar, yozumlar, anımlar", "Azərbaycan dilinin etnoqrafik leksikası", "Qəzet dilinin leksikası" kimi fundamental əsərləri və neçə-neçə elmi məqaləsi vardır. Alim eyni zamanda onlarla kitabın redaktoru olmuş və neçə-neçə gənc alimin yetişdirilməsində özünəməxsus rol oynamış, onların elmə gəlməsində köməklik göstərmiş, elmi işlərə elmi rəhbər və opponentlik etməklə elmimizin xidmətində durmuşdur.

Alimin əməyi dövlət tərəfindən də yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2013-cü ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Biz də öz növbəmizdə görkəmli alimimiz, filologiya elmləri doktoru, professor İsmayıl Oruc oğlu Məmmədlini təbrik edir, ona daha böyük uğurlar arzu edirik.

**GÜNEL MİRZƏYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*